**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 17 (2198) 13 fevral 2021-ci il

# ATƏŞKƏSİN ARXASINDAN QAÇANLAR

**30 illik tarixi gözdən keçirəndə xatırlanan məqamlardan biri də atəşkəsin imzalanmasıdı. Təbii ki, söhbət Azərbaycan və Ermənistan arasında imzalanmış atəşkəsdən gedir. Bu atəşkəsin imzalanması zaman baxımından Ulu Öndərimiz Heydər Əliyevin uğurlu xarici siyasətinin bir hissəsi kimi yada düşür. Yəni 1994-cü ilin mayında imzalanan həmin atəşkəs Azərbaycana özünü toparlamaq və hərbi meydandan daha çox siyasi meydanda özünün həqiqətlərini dünyaya çatdırmaq imkanı verdi.**



Belə ki, böyük dünyaya nüfuz etmək gücü olan o vaxtkı erməni diasporu və onların havadarları apardıqları geniş miqyaslı təbliğat vasitəsilə Azərbaycana qarşı bir media basqısı da yaratmışdılar. Yəni ölkəmiz informasiya blokadasına alınmış, Azərbaycan həqiqətlərinin dünyaya çıxışına maneələr yaradılmışdı. Məhz belə bir şəraitdə Azərbaycanın iqtisadi qüdrətini dirçəltmək, bərpa edib onu yeni dövrün tələblərinə uyğunlaşdırmaq, təbii ki, paralel olaraq həm də inkişaf etdirmək həm müəyyən zaman tələb edirdi, həm də daxili sabitlik. Ona görə də Ulu Öndərimiz, Ümummilli liderimiz Heydər Əliyev cənabları qəbul etdiyi qətiyyətli proqramlara uyğun olaraq Azərbaycanın böyük dünyaya çıxışına start verdi. Məhz 1994-cü ilin yanvarında Horadiz istiqamətində aparılan uğurlu döyüş əməliyyatları nəticəsində Horadiz qəsəbəsinin və 23 yaşayış məntəqəsinin düşmən işğalından azad olunması artıq birmənalı şəkildə göstərirdi ki, Ordunu, Xalqı, bütövlükdə Azərbaycanı səfərbər etmək üçün müəyyən fasilə lazımdır. Bax, elə bu fasilə də imzalanan atəşkəs oldu. Lakin...

Yaşadığımız və artıq geridə qalmış 16-17 illik tarix göstərdi ki, bizim atəşkəsin imzalanmasında qazandıqlarımızla yanaşı, müəyyən itkilərimiz də olubdu. Təbii ki, bu itkiləri torpaq uğrunda Azərbaycan naminə vermişik. Xüsusilə düşmənin tez-tez pozduğu atəşkəs nəticəsində dinc sakinlərimizin, xüsusilə təsərrüfatda çalışanların, daha çox isə uşaqların düşmən gülləsinə, düşmən mərmisinə tuş gəlməsi son dərəcə üzücü hal idi. Ona görə ki, məktəbli uşaqların, yaxud məktəb yaşında olan körpələrin şəhid olması insanlığa, bəşəriyyətə tuşlanan güllə, mərmi, həm də vəhşiliyin göstəricisi idi. Bu faşist xislətini gizlətməyən düşmən məhz imzalanmış atəşkəs dövründə dəfələrlə cəbhənin müxtəlif istiqamətlərində atəşkəsi pozmuş, terror və təxribatlar törətmişdi. Ordumuzun sayıqlığı nəticəsində həmin pozulmuş atəşkəslərə cavab olaraq, 2016-cı ildə uğurlu Aprel döyüşü, eləcə də 2020-ci ildəki Tovuz döyüşü əslində düşmənə dərs olmalı idi. Amma təəssüf ki, düşmən özünün uydurduğu "yenilməz erməni ordusu" xülyasından ayrıla bilmədi. Düşündü ki, Azərbaycan yenə 90-cı illərin əvvəlindəki Azərbaycandı, ordusu da, silah sursatı da, elə həmin illərin ordusu və silah-sursatıdı. Lakin...



***Son 17 ildə Azərbaycan prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin kəskin mövqe ortaya qoyması, özünün bütün xarici səfərlərində, beynəlxalq görüşlərdə, simpoziumlarda etdiyi çıxışlar, səsləndirdiyi fikirlər zaman-zaman həm Azərbaycanın informasiya blokadasının yarılmasına, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına imkanlar yaratdı. Artıq böyük dünya gördü və anladı ki, Azərbaycan günbəgün siyasi, iqtisadi baxımdan möhkəmlənir, güclənir, onun resursları və Qoşulmama hərəkatı tərkibindəki fəaliyyəti göstərir ki, bu ölkə sülhün tərəfdarı olmaqla yanaşı, həm də ərazi bütövlüyünün bərpasına çalışır. Yəni ATƏT-in Minsk qrupunun "turist səfərləri" artıq bu ölkənin bütövlük istəyinə təsir etmək gücündə deyil. Dövlətin rəhbəri və xalqı birləşib dəmir yumruq olub. Deməli, bu yumruq mütləq sözünü deyəcəkdi. Və belə də oldu!..***

2020-ci ilin sentyabr ayının 27-dəki əks hücum həmin "turistlik edən" Minsk qrupuna da, eləcə də ermənilərin havadarlarına da göstərdi ki, Azərbaycan xalqının səbr kasası artıq daşıb. Ali Baş Komandanın xalqımıza etdiyi müraciətdə birmənalı şəkildə vurğulandı ki, "biz zaman-zaman çalışdıq ki, problemi sülh yoluyla, danışıqlar yoluyla həll edək.

Bunun üçün böyük dövlətlərin rəhbərləriylə, ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirdiyi görüşlər zamanı məlum oldu ki, qarşı tərəf masaya yalnız danışıqlar xatirinə oturur.

Biz isə danışıqlar xatirinə danışıqlar aparmağı artıq istəmirik. Xalqımızın səbri sonsuz deyil. Artıq biz sözümüzü döyüş meydanında deyəcəyik.

Və hər kəs bilsin ki, bizim heç kəsin torpağında gözümüz yoxdur. Biz öz torpağımızı geri almaq üçün sərhədlərimizi bərpa etmək üçün döyüşürük".

Ötən ilin sentyabrın sonlarında aktiv döyüş meydanında Azərbaycan Ordusunu, bu ordunun gücünü görən düşmən, eləcə də düşmənin havadarları bir anlıq şoka düşdülər.

Çünki illərlə yaradılmış "erməni mifi", "erməni ordusu mifi" darmadağın edildi. Artıq "cəngavər erməni" əvəzinə meydanda "qaçan rəzil və qorxaq erməni" qalmışdı. Ona görə də ermənilərin havadarları dərhal yenidən atəşkəsi gündəmə gətirdilər. Demək olar ki, Azərbaycan Prezidentinə edilən zənglər, ölkəmizin ünvanına səsləndirilən fikirlərin mahiyyətində atəşkəs xüsusilə sezilirdi.

Lakin Ali Baş Komandanımız cənab İlham Əliyev hər kəsə açıq şəkildə bəyan etdi ki, biz döyüşü ancaq o zaman dayandıracağıq ki, düşmən diz çöksün, torpaqlarımızı tərk etsin, silahı yerə qoysun! Yalnız bundan sonra hansısa bir sənədi imzalamaq olar. Əks halda, biz sona qədər gedəcəyik. Və dünya bilsin ki, biz dinc əhaliylə deyil, erməni ordusu ilə vuruşuruq".

Bəli, həmin döyüşlər zamanı Rusiya prezidenti Putinin tutduğu mövqe, xüsusilə qardaş Türkiyənin hər an Azərbaycanın yanında olması Türkiyə iqtidarının ən yüksək kürsülərdə Azərbaycanın haqq işinə dəstək verməsi bizim böyük Zəfərimizə inamımızı daha da artırmaqla yanaşı, dünyaya da haqlı olduğumuzu bir daha sübut edti. Dünya informasiya məkanında bu müharibənin işıqlandırılması və bu müharibəyə qədərki tarixin şərhləri göstərdi ki, atəşkəs kimə nə qədər və necə fayda verib? O cümlədən də atəşkəsi pozanların aqibəti necə oldu...

**Bu gün dünyanın geosiyasi mənzərəsinə nəzər yetirəndə artıq Azərbaycan dövlətini, onun prezidentini və bu dövlətin daxili, xarici siyasətini diqqətdə saxlayan, onunla hesablaşan yeni mövqe sahiblərinin olduğunu görürük. Təbii ki, bu da bizim müharibədə qazandığımız Böyük Qələbinin daha bir göstəricisidi. Axı qaliblər mühakimə olunmur!**

***Əbülfət MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ